# Ulu Öndərin arzu və inamı - TARİXİ ZƏFƏR, BÖYÜK QAYIDIŞ

1990-cı illərin son dərəcə ağır, bəzi hallarda az qala ümidsiz olan reallıqları ilə müasir Azərbaycan dövlətinin beynəlxalq arenada yüksələn nüfuzunun müqayisəsi Ümummilli liderimizin misilsiz xidmətlərini daha aydın görməyə imkan yaradır. Ulu öndər dünyada və regionda baş verən proseslərin təhlükəli məcraya yönəldiyi vaxtda sanki zamanı dayandırmaqla hər şeyi yenidən başlamağı bacardı, Azərbaycan üçün ən çətin anda düzgün qərarlar qəbul etdi. SSRİ-nin süqutu ilə dağılan geosiyasi konfiqurasiyada hələ formalaşmamış bir dövləti düşdüyü çətin vəziyyətdən çıxarmağa müvəffəq oldu.

*Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi bu qürur və sevinci xalqa bəxş etdi*

Dövlət müstəqilliyinin bərpasının olduqca ağır keçən ilk illərində ölkədə görünməmiş xaos və anarxiya hökm sürürdü. İqtidarın səriştəsizliyi, hakimiyyət uğrunda çəkişmələr Azərbaycanı uçuruma sürükləyirdi. Yaranmış son dərəcə mürəkkəb və ağır vəziyyətdə xalq ümidini Heydər Əliyevə bağlamışdı. Hamı belə bir yekdil fikirdə idi ki, ölkəni fəlakətdən yalnız bu müdrik insan qurtara bilər. Azərbaycan xalqı onu təkidlə Bakıya, siyasi rəhbərliyə dəvət edirdi. Heydər Əliyev gəldi və xilaskarlıq missiyasını cəsarətlə üzərinə götürdü. Bu qayıdış Azərbaycan tarixinə həmişəlik yazılmış hadisələrdən biri oldu. Ulu öndər uzaqgörən siyasəti, güclü iradəsi sayəsində Azərbaycanı parçalanmaqdan, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

**(davamı 5-ci səhifədə)**



(əvvəli 1-ci səhifədə)

Azərbaycan xalqının sadiq oğlu Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan dərhal sonra vəziyyəti düzgün qiymətləndirərək müharibənin davam etdirilməsinin uğurlu nəticələr verməyəcəyi qənaətinə gəlib atəşkəs əldə etdi. Bundan sonra Dağlıq Qarabağ reallığını dünyaya çatdırmaq, dünyanın aparıcı siyasi liderlərini danışıqlar prosesinə cəlb etmək, beynəlxalq ictimai rəydə dönüş yaratmaq və ilk mərhələdə informasiya müharibəsini qazanmaq uğrunda uzun və gərgin siyasi mübarizə yolu başlandı.

Böyük öndər Heydər Əliyev bütün görüşlərində və çıxışlarında, siyasi fəaliyyətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü ağır vəziyyət haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən milli liderimiz özünün qətiyyətli və prinsipial mövqeyini hər bir görüşdə, hər bir çıxışında dünya ictimaiyyətinə tarixi faktlarla əsaslandıraraq çatdırırdı. Rəsmi materiallarda qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il 2 dekabr tarixdə Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü barədə ümumi məlumat verib. O, çıxışında Ermənistan tərəfinin məqsədini Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq niyyəti kimi qiymətləndirib, bütün bunlara yol verilməyəcəyini iştirakçı dövlətlərin başçılarına elan edib. Lissabon sammitinin materiallarını nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycan xalqının lideri Heydər Əliyevin ölkəmizin gələcəyi uğrunda bütün dünya dövlətləri qarşısında nümayiş etdirdiyi diplomatik istedad, cəsarət və müdriklik, bu parlaq şəxsiyyətə hər bir insanda rəğbət və qürur hissi yaradır.

# Ulu Öndərin arzu və inamı - TARİXİ ZƏFƏR, BÖYÜK QAYIDIŞ

Torpaqlarımızın, Qarabağın işğaldan azad olunması ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. Ümummilli lider illər öncə böyük uzaqgörənliklə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır". Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Ümummilli liderimizin arzuladığı qələbə sevincini xalqa bəxş etdi. 30 il torpaqlarımızın düşmən tapdağı altında qalması Azərbaycan xalqının ürəyində bir yara idi. 30 il Qarabağ həsrətilə alışıb-yanan ürəklərin fəryadı, Qarabağa qayıtmaq ümidi ilə yaşayan gözüyaşlı insanların duaları, bu qələbənin gerçəkləşməsi uğrunda dövlət başçımızın apardığı ədalətli siyasi mübarizə, diplomatik danışıqlar nəhayət ki, bu gözəl Zəfər Gününü gətirdi!

Ümummilli liderin qoyduğu möhkəm təməl əsasında Azərbaycan ildən-ilə gücləndi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, qüdrətli ordu yaratdı. Məhz iqtisadi güc, rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, üçrəngli bayrağımız yenidən Vətən torpaqlarında, Qarabağın tacı olan Şuşada qürurla dalğalanmağa başladı. Dəmir yumruqla beli qırılan, başı əzilən düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu, ərazi bütövlüyümüz təmin edildi. Ümummilli liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik". Ulu öndərin arzuları reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. İşğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdışın təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən praktiki fəaliyyətə də başlanılıb. 30 ilə yaxın dövr ərzində işğal altında olan torpaqlarımız öz azadlığına qovuşduqdan sonra həmin ərazilərdə böyük quruculuq işləri geniş vüsət alıb. Ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq, düşmən əsarətindən qurtulmuş şəhər və rayonlarımızda bu gün irimiqyaslı tikinti layihələri həyata keçirilir, infrastruktur əsaslı şəkildə yenilənir. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində bir çox işlərə start verilib. Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun Ağalı kəndinin ərazisində "ağıllı kənd" layihəsinin təməli qoyulub və tikinti işləri davam etdirilir.

***Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi bu qürur və sevinci xalqa bəxş etdi***

Bu gün müharibədən sonra yeni dövrün başladığını, Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimizin zaman olduğunu vurğulayan Prezident İlham Əliyevin dediyi kimi, ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın. Prezident İlham Əliyevin müəllifliyi ilə Qarabağ sürətlə dirçəlir. Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il olmuşdur. "Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik". Bu barədə aprel ayının 12-də ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev nitqində deyib.

Xalqımızın 30 illik yurd həsrətinə, torpaq nisgilinə son qoyulub. Biz doğma Qarabağımıza qovuşmuşuq. Bir sözlə, qazanılan bütün uğurların əsasında Azərbaycanın böyük oğlu, dünyaşöhrətli siyasi xadim, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır.

**Mustafa KAMAL,**
**"Respublika".**